ITALIAN TRADE AGENCY
ICE - Italian Trade Commission
Trade Promotion Office of the Italian Embassy

ƏLAVƏ NR.1

**VAHİD REKVİZİT SƏNƏDİ**

**I HİSSƏ**

**Məlumatlar**

| **TƏCHİZATÇI SİYAHISI** | **ƏLAVƏ NR. 1** |
|---|---|
| OFİS: | ***Bakı Ofisi – İtaliyanın Azərbaycandakı Səfirliyinin Əlaqələrinin İnkişafı üzrə Departament*** |
| Sənədin adı və ya qısa təsviri | ***SERTİFİKATI ƏVƏZ EDƏN BƏYANNAMƏ*** |
| SƏLAHİYYƏTİNDƏ OLAN ÖLKƏLƏR | ***AZƏRBAYCAN VƏ GÜRCÜSTAN*** |

**II HİSSƏ: İQTİSADİ OPERATOR HAQQINDA MƏLUMATLAR**

| **A. İdentifikasiya məlumatları** | **Cavab:** |
|---|---|
| Ad: | |
| Milli identifikasiya nömrəsi (vergi kodu, VÖEN, qeydiyyat nömrəsi) | |
| Poçt ünvanı: | |
| Əlaqəli şəxslər:<br>Telefon:<br>Sertifikatlaşdırılmış elektron poçt və ya e-mail:<br>(veb-sayt, varsa): | |

| **B. İqtisadi operatoru təmsil edən şəxs** | **Cavab:** |
|---|---|
| Adı, soyadı:<br>Doğulduğu tarix və yer: | |
| Tutduğu vəzifə: | |
| Poçt ünvanı: | |
| Telefon: | |
| E-mail: | |

| | |
|---|---|
| Zəruri olarsa, nümayəndəlik haqqında ətraflı məlumat (forma, məqsəd): | |

## III HİSSƏ: KƏNARLAŞDIRMA ÜÇÜN ƏSASLAR

**A: Məhləmə hökmü ilə bağlı əsaslar**

İtaliyada və ya podrat müqaviləsinin bağlandığı ölkədə aşağıdakı bir və ya bir neçə səbəbdən məhkəmənin yekun hökmü ilə cinayət məsuliyyətinə cəlb olunmuş şəxslər seçimdə iştirakdan kənarlaşdırılır: 1) cinayət təşkilatında üzvlük; 2) korrupsiya; 3) fırıldaqçılıq; 4) terror cinayətləri və ya terrorizm fəaliyyəti ilə əlaqəli cinayətlər; 5) cinayət fəaliyyətinə aid pulun dövriyyəsi və ya terrorizmin maliyyələşdirilməsi; 6) uşaq əməyi və insan alverinin digər formaları; 7) dövlət idarəçiliyi ilə müqavilə bağlanmasına maneə olacaq istənilən digər cinayət. Müvafiq seçimdən kənarlaşdırma halları İtaliya qanunvericiliyi tərəfindən və aşağıdakı ölkələrdə nəzərdə tutulur:

- Avropa Birliyinin üzv Ölkələrində 2014/24/UE direktivinin 57-ci maddəsini daxil etmiş daxili normativlərdə qeyd olunan hallar;
- Avropa Birliyinə üzv olmayan Ölkələrdə yerli cinayət məcəlləsində nəzərdə tutulmuş ekvivalent hallar.

Iqtisadi operator, onun rəhbər və ya nəzarət orqanlarının bir üzvü və ya iqtisadi operatoru təmsil etmək, qərar qəbul etmək və ya nəzarət səlahiyyəti olan şəxs yuxarıda qeyd olunmuş heç bir səbəbdən ən çoxu beş il əvvəl məhkəmənin yekun hökmü ilə və ya həmin hökmlə müəyyən edilmiş, tətbiqi hələ də mümkün olan istisna müddətində məhkum olunmayıb.

**B: Vergi və sosial sığorta ödənişləri ilə əlaqəli əsaslar**

Iqtisadi operator yerləşdiyi ölkədə, İtaliyada və podrat müqaviləsinin həyata keçirildiyi ölkədə rüsum, vergi və sosial sığorta ödənişlərinə bağlı bütün öhdəlikləri yerinə yetirib.

**C: Müflislik, maraqların toqquşması və ya peşə ilə bağlı qanun pozuntuları ilə əlaqəli əsaslar**

1) Iqtisadi operator bilərəkdən sağlamlıq və əmək təhlükəsizliyi, ekoloji, sosial və əmək hüququ öhdəliklərini pozmamışdır.
2) Iqtisadi operator aşağıda qeyd olunmuş heç bir vəziyyətdə deyil və aşağıdakı hallardan birinin tətbiq edilməsi preoseduruna məruz qalmamışdır:
a) Müflislik, iflas proseduru, likvidlik, kreditorlarla razılaşma, məhkəmə nəzarəti altında fəaliyyət və digər oxşar vəziyyətlər
b) Fəaliyyətini dayandırmamışdır
3) Iqtisadi operator peşə fəaliyyəti ilə bağlı ağır pozuntularda günahkar olmamışdır
4) Iqtisadi operator digər iqtisadi operatorlarla rəqabəti təhrif etmək məqsədi daşıyan müqavilə bağlamamışdır
5) Iqtisadi operator podrat prosedurundakı iştirakına bağlı heç bir maraq toqquşmasından məlumatlı deyil

6) Iqtisadi operator və ya ona aid müəssisə Sifarişçiyə konsultasiya etməmişdir və digər formada mükafatlandırma prosedurunun hazırlanmasında iştirak etməmişdir
7) Iqtisadi operatorun təcrübəsində daha öncə dövlət podrat müqaviləsinin vaxtından əvvəl xitamı halı olamamış və ya ona əvvəlki bir podrat müqaviləsi ilə bağlı ziyanın ödənilməsi və ya digər sanksiyalar tətbiq olunmamışdır.
8) Iqtisadi operator təsdiq edir ki,
a) Kənarlaşdırma üçün əsasların və seçim meyarlarına riayət edildiyinin yoxlanılması üçün tələb olunan məlumatları təqdim edərkən yalan məlumat verməmişdir;
b) Həmin məlumatları gizlətməmişdir;
c) Sifarişçi tərəfindən tələb olunan əlavə sənədləri dərhal təqdim edə bilər;
d) Sifarişçinin qərarına təsir etməyə, seçilmə prosedurunda ona üstünlük verə biləcək konfidensial məlumatları əldə etməyə cəhd etməmişdir, podrat müqaviləsi proseduruna bağlı qərar qəbulunda əhəmiyyətli dərəcədə təsir göstərə bilən yanlış məlumatlar verməmişdir.

**D: italiya qanunvericiliyi tərəfindən nəzərdə tutulan kənarlaşdırma əsasları və podrat müqaviləsinin həyata keçirildiyi Ölkənin qanunvericiliyi tərəfindən nəzərdə tutulan ekvivalent hallar**

Iqtisadi operator aşağıdakı heç bir vəziyyətdə deyil:

1) Antimafiya qanunvericiliyi tərəfindən nəzərdə tutulan hüquqdan məhrum edilmə, fəaliyyətin dayandırılması və ya qadağa iqtisadi operatora tətbiq olunur
2) Mütəşəkkil cinayətkarlıq tərəfindən infiltrasiyaya məruz qalır
3) Dövlət idarəcilik orqanları ilə müqavilə bağlanmasının qeyri-mümkünlüyünə səbəb ola bilən fəaliyyətinin qarşısını alan qadağalara və digər sanksiyalara məruz qalır
4) Kvalifikasiyasının təsdiqlənməsi məqsədi ilə qeydiyyat dövründə yanlış məlumat və ya yanlış sənəd təqdim etdiyinə görə dövlət korrupsiyaya qarşı mübarizə qurumunun informasiya bazasında qeydiyyata alınmışdır;
5) Fidusiar öhdəlik qadağasını pozmuşdur
6) Əlil insanların işləmək hüququ üzrə normalara riayət etmir
7) Mütəşəkkil cinayətkarlıq tərəfindən və ya mütəşəkkil cinayətkarlığın fəaliyyətinə dəstək olmağa çalışan şəxs tərəfindən törədilmiş rüşvət və qəsb cinayətlərinin qurbanı olduğu halda, zərurət və qanuni müdafiə halı olmadan faktları məhkəmə orqanına bildirmişdir.
8) Eyni müqavilə proseduru iştirakçısına bağlıdırsa, faktiki şəkildə belə, nəzarət və əlaqə halı mövcuddursa, bu hal təklifin yalnız bir iştirakçıya aid edilə bilinməsinə səbəb olur
9) Sifarişçi ilə əvvəlki üç ildən az bir müddətdə əməkdaşlığını dayandırmış və işlədiyi son üç ildə Sifarişçi adından eyni iqtisadi operatorla danışıqlar aparmış işçiləri ilə tabeli şəkildə və ya fərdi əmək müqaviləsi bağlamışdırsa, işlər həvalə etmişdirsə *(pantouflage və ya revolving door)*

## IV HİSSƏ: SEÇİM MEYARLARI

Iqtisadi operator seçilməyə aid sənəddə tələb olunan bütün meyarlara uyğundur

## V HİSSƏ: YEKUN MÜDDƏALAR

Müqavilәni imzalayan şəxs/şəxslər bəyan edir/edirlər ki, II və III hissələrdə verilmiş məlumatlar düzgündür və müqavilәni imzalayan şəxs/şəxslər yanlış məlumatlandırmanın İtaliya qaanunvericiliyi və yerli qanunvericilik tərəfindən nəzərdə tutulan cəza xarakterli nəticələrindən xəbərdardır.

Müqavilәni imzalayan şəxs/şəxslər II və III hissələrdə verilmiş kənarlaşdırma əsaslarının mövcud olmadığını təsdiq edir və IV hissədə verilmiş tələblərə uyğun olduğunu təsdiq edir.

Müqavilәni imzalayan şəxs/şəxslər Sifarişçiyə, I hissəyə uyğun olaraq, təqdim olunmuş məlumatların düzgünlüyünü, lazımi yerli orqanlar tərəfindən yoxlanılmasına icazə verir.

Müqavilәni imzalayan şəxs bu sənədin ayrılmaz hissəsini təşkil edən razılaşma sənədinin və həmin sənədin 1 n.-li Əlavəsinin, istisna hallar olmadan, bütün şərtlərini qəbul etdiyini təsdiq edir.

[Yer və tarix]

Imza / möhür

[Imzalayan şəxsin/şəxslərin adı, soyadı və vəzifəsi]

ITALIAN TRADE AGENCY
ICE - Italian Trade Commission
Trade Promotion Office of the Italian Embassy

**FƏRDİ MƏLUMATLARIN İSTİFADƏSİ İLƏ BAĞLI FİZİKİ ŞƏXSLƏRİN HÜQUQLARININ MÜDAFİƏSİ QAYDALARI**

*Avropa Birliyinin 2016/679 Qaydaları, 13-cü maddə*

Fərdi məlumatların istifadəsi fiziki şəxslərin fundamental hüquq və azadlıqlarının qorunması üçün qanunilik, dürüstlük və şəffaflıq prinsiplərinə əsaslanır. Bu məqsədlə, aşağıdakı məlumatlar təqdim edilir:

1. Məlumatlar ICE Agentliyi - İtalyan Müəssisələrinin Təşviqi və Beynəlmiləlləşdirilməsi Təşkilatı (bundan sonra ICE Agentliyi adlandırılacaq) tərəfindən istifadə edilir. Xüsusi halda ICE Agentliyi ............... [xaricdəki qərargahın adı, ünvanı, elektron poçt ünvanı, telefon nömrəsi əlavə edilir] ofisi üçün vasitəçi qismində çıxış edir.

2. Mübahisəli məsələlər və ya şikayət halında, ICE Agentliyinin fərdi məlumatların qorunması üzrə məsul şəxsi ilə aşağıda qeyd olunan ünvana müraciət edərək əlaqə saxlamaq olar: ICE Agentliyi - İtalyan Müəssisələrinin Təşviqi və Beynəlmiləlləşdirilməsi Təşkilatı, Roma şəhəri, 00144, Liszt küç., 21; e-mail ünvanı: privacy@ice.it.

3. Tələb olunan fərdi məlumatlar podrat müqaviləsinin mövzusu olan xidmətin göstərilməsinin həvalə olunacağı iqtisadi operatorun seçilməsi üçün lazımdır.

4. Məlumatların təqdim edilməsi italyan qanunvericiliyində nəzərdə tutulan öhdəlikdir və tələb olunan məlumatların verilməsindən imtina fiziki şəxsin seçilmə prosedurundan və ya xidmətin həvalə olunmasından kənarlaşdırılmasına səbəb olur.

5. Fərdi məlumatlar xüsusi təyin olunmuş məsul şəxs tərəfindən yazılı və ya elektron qaydada istifadə olunacaq.

6. Məlumatlar ICE Agentliyinin daxili və xarici nəzarət orqanlarına təqdim ediləcək. Bu sənədi imzalamaqla maraqlı tərəf əvvəlcədən verilmiş məlumatlarının yoxlanılması üçün onların yerli məsul orqanlara da təqdim edilməsinə və imzalanmış müqavilənin əsas elementlərinin, dövlət müqavilələrinin şəffaflığı haqqında İtaliya qanunvericiliyinə müvafiq olaraq, sifarişçinin internet saytında dərc olunmasına öz razılığını verir.

7. Məlumatlar, işin icrasının sona çatması və ya digər səbəblərdən, öhdəliyin yerinə yetirilməməsinə görə müqavilənin ləğvi də daxil olmaqla, müqavilə əlaqələrinin başa çatdığı andan ən azı 5 il müddətində saxlanılır. Bu müddət məhkəmə prosesinin başlanması halında dayandırılır.

8. Maraqlı tərəf öz fərdi məlumatlarına daxil olmağı və onlara düzəliş etməyi tələb edə bilər. Bu halda, maraqlı tərəf ICE Agentliyi tərəfindən fərdi məlumatların qorunması üzrə təyin olunmuş məsul şəxsi 2-ci bənddə qeyd olunmuş əlaqə vasitələri ilə məlumatlandıraraq, 1-ci bənddə qeyd olunmuş ünvana müvafiq sorğu təqdim etməlidir.

ITALIAN TRADE AGENCY
ICE - Italian Trade Commission
Trade Promotion Office of the Italian Embassy

9. Marqlı şəxs hüquqlarının pozulduğunu iddia edərsə, ICE Agentliyi tərəfindən fərdi məlumatların qorunması üzrə təyin olunmuş məsul şəxsə şikayət verə vilər. Alternativ olaraq, fərdi məlumatların qorunması üzrə Zaminə (Roma şəhəri, 00186, Monte Çitorio Meydanı, 121, tel.: 0039 06 696771 (kommutator), e-mail ünvanı: garante@gpdp.it, sertifikatlaşdırılmış elektron poçt: protocollo@pec.gpdp.it) və ya məhkəməyə müraciət edə bilər.

[Yer və tarix]

Tanış oldum və təsdiq edirəm

Imza / möhür .....................................